***Günel MEHDİZADƏ*** *

# AZƏRBAYCAN RESPUBLİKASININ ŞƏRQ-QƏRB ENERJİ LAYİHƏLƏRİNDƏ ROLU MƏSƏLƏLƏRİ AKADEMİK YAQUB MAHMUDOVUN TƏDQİQATLARINDA

Azərbaycan Respublikasının enerji siyasəti və bu siyasətin tərkib hissəsi olan neft strategiyası sadəcə iqtisadi deyil, eyni zamanda siyasi və sosial aspektli olduğu üçün, uğurlu bir dövlət siyasətinə çevrilmişdir. Bu gün Azərbaycanın enerji siyasəti dünya geosiyasi sisteminin tərkib hissəsini təşkil etməkdədir. Neft ehtiyatlarına sahib bir ölkə olan Azərbaycanın əlverişli coğrafi-siyasi mövqeyi onu həm də dünyada enerji nəqlinin mərkəzlərindən birinə çevirmişdir. Yəni, Azərbaycanın iqtisadi və eləcə də siyasi inkişafı üçün təbii ehtiyatlar qədər, onların nəqli də önəmli amil olmuşdur və bu rolunu davam etdirməkdədir. Başqa sözlə desək, enerji siyasəti ilə onun nəqli məsələləri Azərbaycan Respublikasının enerji və nəqliyyat dəhlizlərini yaratmaq və onları inkişaf etdirmək strategiyası ilə vəhdət təşkil edir.

Müstəqillik əldə etdikdən sonra demokratik dövlət quruculuğu yoluna qədəm qoymuş gənc Azərbaycan Respublikasının üzləşdiyi sosial-iqtisadi və siyasi problemlərin həlli onun beynəlxalq aləmdəki mövqeyi, ayrı-ayrı ölkələrlə siyasi və iqtisadi əlaqələri, dünya birliyinə inteqrasiyası prosesinin intensivliyi ilə də sıx bağlı idi. Bu mənada, Azərbaycan Respublikasının beynəlxalq əlaqələr sistemində layiqli yer tutması üçün dünya siyasətinin formalaşdırılmasında aparıcı rol oynayan dövlətlərlə, o cümlədən siyasi çəkisinə və iqtisadi potensialına görə beynəlxalq aləmdə önəmli yer tutan Qərbi Avropa ölkələri və ABŞ ilə qarşılıqlı münasibətlərin tənzimlənməsinin böyük əhəmiyyəti var idi.

Belə bir mürəkkəb vəziyyətdə, 1993-cü ildə Ümummilli lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıdışı dövlətin uğurlu daxili və xarici siyasətinin təməlini qoymuş oldu. Azərbaycan Respublikasının geosiyasi statusunu, milli inkişaf və təhlükəsizlik məsələlərini, milli maraq dairələrini və hədəflərini, bu maraqların qorunması mexanizmlərini müəyyən edən dövlət strategiyası hazırlandı. Müəllifi Ümummilli lider Heydər Əliyev olan bu strategiya Azərbaycanın qarşısında duran ağır siyasi, iqtisadi, sosial problemlərin həlli yollarını göstərməklə yanaşı, "Azərbaycanın milli inkişafının, təhlükəsizlik, enerji, nəqliyyat-kommunikasiya-dəhliz, informasiya və s. siyasətinin nəzəri və praktiki əsaslarının, ölkənin əsas inkişaf resurslarının formalaşdırılması, müstəqil dövlə-

* **Günel Mehdizadə** - AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu

tin həyati maraqlarının çərçivəsinin müəyyənləşməsi və təmin olunması, cəmiyyətin sosial-iqtisadi, siyasi və mənəvi əsaslarının yeni dəyərlər və prinsiplər əsasında qurulması kimi vəzifələr"i də müəyyən edirdi [1, s.15]. Bu vəzifələrin intensiv bir şəkildə həyata keçirilməsi isə tezliklə Azərbaycan Respublikasını bölgənin güclü dövlətinə çevirdi.

1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması, ayrı-ayrı yataqlar üzrə bağlanmış müqavilələr Azərbaycan dövlətinin əldə etdiyi böyük uğur olmaqla yanaşı, əvvəlcə Azərbaycan Respublikasının neft və qaz sənayesinin inkişafına təkan verdi, növbəti addım kimi isə gələcəkdə Azərbaycanın tranzit enerji dəhlizi kimi rolunu artırdı. Belə ki, "Əsrin müqaviləsi"nin imzalanması ilə zəngin neft və təbii qaz ehtiyatlarına malik ölkəyə böyük sərmayələrin cəlb edilməsinə nail olunması həm də bu ehtiyatların Avropaya nəqlində, həmçinin Şərq-Qərb əlaqələrinin daha intensiv inkişaf etdirilməsində Azərbaycanın vasitəçi rolunu təmin etmiş oldu. Azərbaycan Respublikası dünya siyasətində etibarlı bir tərəfdaş kimi qəbul edilməyə başlandı. Dünyanın aparıcı neft şirkətləri ölkənin sosial və iqtisadi dirçəldilməsinə yardım etməyə başladılar. Avropa İttifaqının ən böyük layihələrində Azərbaycan aparıcı yer almağa başladı. "Böyük İpək Yolu" bu layihələr içərisində həm miqyasına, həm uğurlarına görə ilk yerlərdən birini tutdu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin də qeyd etdiyi kimi, "Böyük İpək Yolu"nun bərpası və TRASEKA nəqliyyat dəhlizinin fəaliyyəti regional inteqrasiya proseslərinə təkan verərək ölkəmizin sosial-iqtisadi inkişafına bundan sonra da xidmət edəcəkdir" [2].

Dünya təcrübəsində bənzəri olmayan Heydər Əliyev neft strategiyası, Azərbaycan Respublikasının qloballaşan dünyanın Şərq – Qərb enerji və nəqliyyat layihələrində oynadığı rol görkəmli tarixçi akademik Yaqub Mahmudovun elmi tədqiqatlarında geniş bir şəkildə araşdırılmışdır [4-5; 7-14; 17]. Məlum olduğu kimi, Yaqub Mahmudovun və onun məktəbinin araşdırmalarının başlıca istiqamətləri – Azərbaycanın dövlətçilik tarixidir. "Azərbaycanın Manna dövlətindən başlayaraq XXI yüziliyə qədər gəlib çıxan böyük, şanlı, zəngin dövlətçilik tarixini araşdıran Yaqub Mahmudov, əslində, Azərbaycan tarixinin yeni konsepsiyasını təqdim etmişdir. Bu konsepsiya Azərbaycan xalqının unikallığı və təkrarsızlığı, geniş tarixi ərazidə yayılmaqla zəngin maddi və mənəvi mədəniyyətə, milli məfkurəyə və tarixi yaddaşa sahib olduğu faktına söykənir. Yaqub Mahmudov və onun məktəbi Azərbaycanın zəngin dövlətçilik tarixinin bütün mərhələlərini araşdırmaqla, əslində, Azərbaycan tarixinin milli konsepsiyasını təqdim etmişdir və bu konsepsiya Azərbaycan xalqının geniş tarixi ərazidə yayılmaqla zəngin maddi və mənəvi mədəniyyətə, milli məfkurəyə və tarixi yaddaşa sahib olduğu faktına söykənir" [3, s.9].





Müstəqil Azərbaycan Respublikasının daxili və xarici siyasət məsələləri, Heydər Əliyevin dövlətçilik irsi, bu irsin davamçısı İlham Əliyevin milli ənənələrimizə sadiq idarəçilik strategiyası akademik Yaqub Mahmudovun məqalə və monoqrafiyalarında elmi əsaslarla araşdırılmışdır. Tarixçi-alim Yeganə Gözəlovanın da qeyd etdiyi kimi, "Adı böyük hərflərlə yazılacaq Heydər Əliyev haqqında ilk tədqiqatların da məhz bu tarixçi tərəfindən yazılması təsadüfi deyildir" [3, s.107]. Bu tədqiqatlarda Heydər Əliyevin müəllifi olduğu neft strategiyası, bu strategiyanın qurulması üçün verilən mücadilə, İlham Əliyevin Azərbaycanın Şərq – Qərb enerji layihələrində iştirakı üçün həyata keçirdiyi uğurlu xarici siyasət öz əksini tapmışdır. Yaqub Mahmudovun Ulu Öndər Heydər Əliyevin dövlətçilik fəaliyyəti, həmçinin onun siyasi irsinin davamçısı Prezident İlham Əliyevin daxili və xarici siyasətinə həsr olunmuş məqalə və monoqrafiyalarında, həmçinin, dünyanın aparıcı dövlətlərinin Cənubi Qafqaz və Xəzər – Qara dəniz hövzəsi regionunda nümayiş etdirdikləri geosiyasi maraqlar və yürütdükləri siyasət fonunda Azərbaycan Respublikasının inkişaf perspektivləri araşdırılır, ölkənin milli inkişaf və təhlükəsizlik maraqlarının təmin edilməsi ilə bağlı dövlət siyasətinin əsasları şərh edilir.

Akademikin Heydər Əliyevin dövlət siyasəti, o cümlədən neft strategiyası ilə bağlı araşdırmalarının içərisində «Heydər Əliyev ideyalarının zəfər yürüşü» adlı fundamental tədqiqatını xüsusi qeyd etmək lazımdır. Bu əsərində Yaqub Mahmudov müasir Azərbaycanın böyük şəxsiyyəti olan Heydər Əliyevin fədakar ömür yolunu, tarixi xidmətlərini, irsinin müasir Azərbaycan üçün əvəzedilməz rolunu tədqiq etmişdir; XX yüzillikdəki siyasi keşməkeşlər və bu ağır problemlərin yükü ilə qarşılaşmış Azərbaycan xalqının xilas yolunun Heydər Əlirza oğlu Əliyev olduğunu göstərmişdir (bax: 7). Yaqub Mahmudovun «Heydər Əliyev ideyalarının zəfər yürüşü» adlı fundamental monoqrafiyası müasir dövlətçiliyimizin, müasir milli dirçəlişimizin əsaslarını yaratmış, öz fəaliyyəti ilə onilliklər deyil, yüzilliklər üçün böyük irs qoymuş – Azərbaycan xalqının böyük tarixi şəxsiyyəti, Ulu Öndər Heydər Əliyevin dahi siyasətinə və Azərbaycanın Yeni İntibah dövrü tarixinə həsr olunmuşdur. Çağdaş Azərbaycanın XXI yüzilliyə demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunda uğurdan uğura qovuşmasını təmin edən Heydər Əliyevin xidmətlərini obyektiv şəkildə araşdıran Yaqub Mahmudov kitabın sonuncu bölməsində bu dahi Azərbaycanlının irsinin davamçısı olan İlham Əliyevin siyasətini tədqiq edir, müasir dövrün ən tanınmış gənc dövlət xadimi olan İlham Əliyevin siyasi portretini verir. Tarixçi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycanın müasir quruculuğu yolunda xidmətlərini Heydər Əliyev ideyalarının zəfər yürüşü, siyasi varislikdə müdriklik, qətiyyət və milli maraqlara sədaqət nümunəsi kimi səciyyələndirir, Böyük Azərbaycanın İntibahının İlham Əliyevlə bağlı olduğunu yazır.

Akademik Yaqub Mahmudov "Azərbaycan tarixinə Heydər Əliyev baxışı və ya xalqımızın Milli dirçəliş konsepsiyası" adlı məqaləsində Azərbaycanın neft siyasəti məsələlərinə xüsusi yer ayırır: "Ulu Öndərin Müraciətində müasir mərhələdə Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanılmasında və möhkəmləndirilməsində neft amilinə xüsusi diqqət yetirilir. Bu bir həqiqətdir ki, Heydər Əliyev Azərbaycan tarixində ilk dəfə olaraq xalqın bu mühüm sərvətinin milli müqəddəratımızda oynadığı rolu dərindən araşdıran, düzgün qiymətləndirən, xüsusilə neft amilindən Azərbaycanın xarici siyasətində istifadə olunması konsepsiyasını hazırlayıb həyata keçirən dövlət xadimi olmuşdur. Heydər Əliyev məhz özünün neft strategiyası ilə tarix boyu Cənubi Qafqazda üstünlüyü əldə saxlamaq üçün daim «erməni kartı»ndan istifadə edən qüvvələrə qalib gəldi. Bu, əslində Azərbaycanın diplomatiya tarixində yeni kəşf, yeni istiqamətdir" [15, s.31].

Qeyd edək ki, Azərbaycanın Şərq – Qərb enerji və nəqliyyat dəhlizi layihələrində layiqli yerini alması, fəal bir şəkildə iştirakı üçün Heydər Əliyevin neft strategiyasının ardıcıl davamçısı olan İlham Əliyevin fəaliyyəti əvəzedilməzdir. Prezident İlham Əliyevin fəaliyyətinə və xidmətlərinə elmi əsaslarla qiymət verən akademik Yaqub Mahmudov monoqrafiyasında yazır: "Prezident kürsüsünə əyləşərkən İlham Əliyev, artıq dünyada tanınmış və qəbul olunmuş təcrübəli, sayılıb-seçilən dövlət xadimi idi. O, yeni və müstəqil Azərbaycan uğrunda ən ağır mübarizələrdə dahi rəhbərin ən yaxın silahdaşı olmuş, həyata keçirilən bütün islahatlarda fəal iştirak etmiş, sərbəst iqtisadiyyatın qanunauyğunluqlarına mükəmməl surətdə yiyələnmiş, Heydər Əliyev neft strategiyası və gənclər siyasətinin hazırlanması və həyata keçirilməsində öncül rol oynamış, Milli Olimpiya Komitəsinə başçılıq etmiş, Dövlət Neft Şirkətinin vitse-prezidenti və birinci vitse-prezidenti, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini kimi çox məsul vəzifələrdə çalışmış, ölkənin Baş naziri vəzifəsinədək yüksəlmişdir. Üstəlik, İlham Əliyev Prezident seçilərkən, yuxarıda deyildiyi kimi, çoxlarından fərqli olaraq, həm təhsilinə, həm də konkret ictimai-siyasi fəaliyyət təcrübəsinə görə peşəkar siyasətçi idi" [15, s.12].

Məlum olduğu kimi, 1993-cü ilin sonu – 1994-cü ilin əvvəllərinə doğru Heydər Əliyevin gərgin siyasi və diplomatik səyləri nəticəsində daxili ictimai-siyasi sabitliyin bərpası Azərbaycan Respublikasının ölkənin milli mənafelərini təmin edə biləcək müqavilənin imzalanması üçün danışıqlar prosesini sürətləndirdi. Aparılan danışıqların daha səmərəli olması üçün Prezident Heydər Əliyevin Fərmanı ilə 1994- cü il martın 1-də İlham Əliyev ARDNŞ-in birinci vitse-prezidenti təyin edildi. İlham Əliyev sonralar «Caspian energy» jurnalına verdiyi müsahibəsində deyirdi: «Bu zaman bizim qarşımızda üç əsas vəzifə dayanmışdı: birincisi, kontraktın imzalanmasına nail olmaq. İkincisi, müqavilədə Azərbaycan üçün ən əlverişli həm hüquqi, həm də iqtisadi şərtlər yaratmaq. Üçüncüsü isə müqavilənin işləməsinə nail olmaq" (ətraflı bax: 16).





"Əsrin Müqaviləsi"nin imzalanması ərəfəsində Azərbaycanın apardığı diplomatik və siyasi mübarizə çox mürəkkəb beynəlxalq şəraitdə gedirdi. Akademik Yaqub Mahmudov o illərin həm canlı şahidi, həm tarixçi baxışı ilə bu mübarizəni çox dəqiqliklə verir: "Prezident İlham Əliyev Azərbaycan dövlətçiliyinin qorunub saxlanılması və yeni Azərbaycanın qurulmasında Heydər Əliyevin ən yaxın silahdaşı olmuşdur. İlham Əliyev müəllifi Heydər Əliyev olan neft strategiyasının hazırlanmasında, bu siyasətin dünya meydanında uğur qazanmasında və gerçəkləşməsində, həmin sahədə müxtəlif layihələrin hazırlanmasında, çox çətin diplomatik tapşırıqların yerinə yetirilməsində fəal iştirak etmiş, ölkəyə investisiya axınında mühüm rol oynamışdır. Belə ki, "Əsrin Müqaviləsi" ətrafında aparılan danışıqlarda Azərbaycan tərəfinin strateji maraqlarının təmin olunmasında, xüsusilə danışıqların 45 gün ərzində davam etdiyi olduqca gərgin keçən Hyuston mərhələsində İlham Əliyev həlledici rol oynamışdır. Hyuston danışıqları zamanı Rusiya tərəfinin Xəzərin hüquqi statusu ilə bağlı məsələ qaldırması danışıqların gedişində çox ciddi gərginlik yaratmışdı. Məhz İlham Əliyevin qətiyyətli mövqeyi nəticəsində bu gərginlik aradan qaldırılmış, daha doğrusu, "Əsrin Müqaviləsi"nin kağız üzərində qalmaq təhlükəsi sovuşmuşdu. Bu tarixi həqiqətin açıqlanması da "Əsrin Müqaviləsi"nin imzalanmasında İlham Əliyevin rolunu bir daha təsdiqləyir" [15, s.12-13].

Akademik Yaqub Mahmudovun adıçəkilən tədqiqatlarında İlham Əliyevin dünya səviyyəsində ucalmış müasir siyasətçi, qloballaşan dünyanın görkəmli dövlət xadimi kimi fəaliyyətinin siyasi və elmi qiyməti verilir, Azərbaycanın böyük bir coğrafiyada liderliyini qorumaq üçün həyata keçirdiyi siyasəti Heydər Əliyev ideyalarının davamı olaraq göstərir (bax: 8-13). Bu siyasətin tərkib hissəsi olaraq neft strategiyasının ardıcıl həyata keçirilməsinin önəmini xüsusi vurğulayan Yaqub Mahmudov yazır: "Azərbaycan xalqının böyük xoşbəxtliyidir ki, onun Prezidenti İlham Əliyev bugünkü sürətlə dəyişən, dinamik dünyanın nəbzini əlində saxlaya bilir, müasir, çevik və cəsarətli dövlət xadimi kimi beynəlxalq münasibətlərdə sürətlə baş verən dəyişikliklərdən öz Vətəninin və xalqının xeyrinə məharətlə istifadə etməyi bacarır, yurdumuzu gözlənilməz və gözlənilən risklərdən uğurla qoruyur. Ölkə başçımız müasir dünyada gedən siyasi və iqtisadi proseslərə dərindən bələddir, qloballaşma və inteqrasiya nəticəsində dünya meydanında baş verə biləcək bütün dəyişiklikləri irəlicədən görür və Azərbaycanı bu dəyişiklikləri qarşılamaq üçün qabaqcadan hazırlaya bilir, öz Vətənini həyatın bütün sahələrində qələbədən-qələbəyə qovuşdurur. Heydər Əli-

yev siyasəti Azərbaycanda yaşayır və qalib gəlir. Bu siyasəti həyata keçirən siyasi varisin zəfər yürüşü davam edir!" [15, s.75].

Yaqub Mahmudovun yuxarıda nəzərdən keçirdiyimiz və qısa icmalını verdiyimiz tədqiqatları Heydər Əliyevin neft strategiyasının alternativsizliyini, Azərbaycanın Şərq – Qərb enerji və nəqliyyat layihələrində fəal iştirakı üçün güclü təminat olduğunu göstərir; Prezident İlham Əliyevin bu strategiyanın davamçısı olaraq verdiyi mücadilənin və göstərdiyi xidmətlərin sadəcə Şərq – Qərb enerji və nəqliyyat layihələri üçün deyil, bütünlükdə Azərbaycan və Avrasiya coğrafiyası üçün böyük perspektivlər açdığını bir daha təsdiqləyir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Həsənov Ə.M. Azərbaycanın geosiyasəti, Bakı, "Zərdabi LTD" MMC, 2015 - 1056 s.
2. İlham Əliyevin "Tarixi İpək Yolu"nun bərpası üzrə Beynəlxalq Konfransın 10 illiyinə həsr olunmuş yubiley konfransında çıxışı // "Azərbaycan qəzeti", 05.12.2008
3. Gözəlova Y.H. Tarix elmində Yaqub Mahmudov məktəbi. Bakı, "Təhsil", 2013 – 648 s.
4. Mahmudov Y.M. Ata yurdumuzun Atatürkü // "Dirçəliş. XXI əsr" jurnalı, Bakı, iyun 2002-ci il, № 52, s.46–54.
5. Mahmudov Y.M. Ata yurdumuzun Atatürkünə // "Azərbaycan" qəzeti, 2003, 14 dekabr; "Respublika" qəzeti, 2003, 14 dekabr; "Xalq qəzeti" qəzeti, 2003, 14 dekabr; "Səs" qəzeti, 2003, 14 dekabr.
6. Mahmudov Y.M. Azərbaycan tarixinə Heydər Əliyev baxışı və ya xalqımızın Milli dirçəliş konsepsiyası (bir müraciətin hikməti) // Heydər Əliyev irsi və Azərbaycan dövlətçiliyi. Bakı, 2005, s. 378-404.
7. Mahmudov Y.M. Heydər Əliyev ideyalarının zəfər yürüşü. Bakı, "Təhsil", 2011 – 608 s.
8. Mahmudov Y.M. İlham Əliyev – Azərbaycan dövlətçiliyinin parlaq gələcəyi // Gülüstan, 2003, № 2 (Xüsusi buraxılış), s. 3-4.
9. Mahmudov Y.M. İlham Əliyev – Dünya səviyyəsində ucalmış müasir siyasətçi // Xankişiyev Aslan, Mehdiyev Sübut. Diplomatiya və iqtisadiyyat. Bakı, 2003, s.7-14.
10. Mahmudov Y.M. İlham Əliyev – Dünya səviyyəsinə ucalmış müasir siyasətçi // "Azərbaycan" qəzeti, 2003, 26 yanvar.
11. Mahmudov Y.M. İlham Əliyev – Qloballaşan dünyanın görkəmli dövlət xadimi // "Xalq" qəzeti, 2004, 15 oktyabr; «Bakı» qəzeti, 2004, 31 oktyabr.
12. Mahmudov Y.M. İlham Əliyev – qloballaşan dünyanın böyük dövlət xadimi // İlham Əliyev. 8 il hakimiyyətdə. Bakı, Şərq-Qərb, 2011, s.25–44







13. Mahmudov Y.M. İlham Əliyev – Siyasət dünyamızın gələcəyi // "Dirçəliş-XXI əsr" jurnalı, 2003, № 59, s.98-103; "Sara Xatun", 2003, № 3, s.12-13.
14. Mahmudov Y.M. İlham Əliyev – Yeni Azərbaycanın lideri // Səlimxanlı Dəyanət. Diplomatiyadan siyasi olimpə qədər yol. Bu yol İlham Əliyevin yoludur. Bakı, Əbilov, Zeynalov və oğulları, 2003
15. Mahmudov Y.M. İlham Əliyev və Azərbaycan tarix elmi. Bakı, Turxan, 2014 – 268 s.
16. Алиев И.Г. Каспийская нефть Азербайджана. Москва, "Известия", 2003, 712 с.
17. Махмудов Я.М. Личность Гейдара Алиева в контексте современной истории // "Dirçəliş – XXI əsr", 2003, 69